**Dövlət Statistika Komitəsində "Məlumatların yayımlanması və məlumatların saxlanılması" mövzusunda təlim kursu keçirilmişdir.**




2014-cü ilin illik iş planına uyğun olaraq İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat Mərkəzi (SESRİC) tərəfindən Statistik potensial imkanlar proqramı (StatCaB) çərçivəsində 2014-cü ilin 11-13 avqust tarixlərində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində "Məlumatların yayımlanması və məlumatların saxlanılması" mövzusunda təlim kursu keçirilmişdir. Kurs Türkiyə Statistika İstitutunun (TURKSTAT) mütəxəssisi xanım Mədinə Akyıldız tərəfindən aparılmış və kursda Dövlətstatkomun müvafiq şöbələrinin əməkdaşları iştirak etmişlər.



Statistik fəaliyyətlərin təsnifatında (CSA rev.1 – oktyabr, 2009-cu il) müəyyən edildiyi kimi məlumatların yayımlanması və saxlanmasına məlumatların yayılma siyasətləri, strategiyaları, metod və texnologiyaları, məlumat bazalarının və məlumat "anbar"larının dizaynı kimi mövzularla yanaşı istifadəçilərlə əks əlaqə, media ilə əlaqə, məlumat və metaməlumatların təqdimatı, elektron yayım (internet), statistik portal və s. kimi mövzular daxildir. "Məlumatların yayımlanması və məlumatların saxlanılması" mövzusu hazırda "Məlumatların toplanması, işlənməsi, yayılması və təhlili" domeni çərçivəsində təsnifləşdirilir.



"Məlumatların yayımlanması və məlumatların saxlanılması"na dair təlim kursunda aşağıdakı mövzular haqqında müzakirələr aparılmışdır:

- Məlumat bazasının dizaynı
- SQL əsas prinsiplər
- Məlumat "anbarı" konsepsiyası
- ETL prosesləri
- Məlumatların əldə edilməsi
- TURKSTAT-da məlumatların işlənməsi və məlumatların saxlanması
- Mərkəzi Yayım Sistemi (MEDAS)



